BƏDƏN TƏRBİYƏSİ VƏ İDMAN AKADEMİYASININ ELMİ XƏBƏRLƏRİ
НАУЧНЫЙ ВЕСТНИК АКАДЕМИИ ФИЗИЧЕСКОЙ КУЛЬТУРЫ И СПОРТА
SCIENTIFIC NEWS OF ACADEMIY OF PHYSICAL EDUCATION AND SPORT
Volume 1
№ 2 2019

# ŞİRVAN BƏYLƏRBƏYLİYİ MÜHÜM İNZIBATİ-ƏRAZİ VAHİDİ KİMİ (1538-1736-CI İLLƏR)

*V.Ə.Hacıyev*

**Nəşr tarixi**
Qəbul edilib: 1 iyun 2019
Dərc olunub: 5 iyul 2019
*© 2019 ADBTİA. Bütün hüquqlar qorunur.*

**Xülasə:** Məqalədə Səfəvilər dövründə Şirvan bəylərbəyliyinin yaranması, bəylərbəylikdə müstəqil dövlətçilik ənənələrinin bərpası uğrunda mübarizə, Şirvan bəylərbəyliyinin iqtisadi, siyasi, hərbi-strateji baxımdan ən böyük inzibati-ərazi vahidi olması, bəylərbəyliyinin hüquqları vilayətin idarəçilik sistemi, bəylərbəyliyin mahal və nahiyələrə bölünməsi, mahal hakimlərinin titulları, hüquq və səlahiyyətləri təhlil edilmişdir.
**Açar sözlər:** Şirvan, Şamaxı, bəylərbəylik, mahal, iqtisadi, idarəetmə

Səfəvilərin 1500-1501-ci il və 1509-cu ildə Şirvana yürüşləri zamanı Şirvanşahların daxili müstəqilliyinə son qoyulmamışdı. I Şah Təhamsibin dövründə Şirvanşahlarla səfəvi sarayı arasında münasibətlərin kəskinləşməsi, 1534-cü ildə I Sultan Süleymanın Səfəvi ərazisinə birinci yürüşü dövründə Səfəvi sarayına müxalif olan qüvvələrin separatizmi, səfəvilərə xəyanət etmiş Biye Fiş Gilan hakimi əmir Dibaca Şirvanşah Sultan Xəlilin Sığınacaq verməsi ilə 1538-ci ildə I Təhmasib Şirvani Səfəvi dövlətinə birləşdirərək Şirvanın müstəqilliyinə son qoydu və onun ərazisi bəylərbəylik kimi Səfəvi dövlətinin tərkibinə qatıldı. Beləliklə, tarixi Şirvan torpaqları Səfəvi dövlətinin inzibati ərazi vahidləri sırasına daxil edildi.

Səfəvilər dövründə bəylərbəylik ən böyük inzibati-ərazi vahidi idi. Şirvan bəylərbəyliyi özünəməxsusluğu ilə digər inzibati-ərazi vahidlərindən fərqlənirdi. Səfəvilər dövlətinin Şimal sərhədlərinin qorunması və mühüm ipək istehsalı mərkəzlərindən biri olmaqla Avropa və Rusiyaya gedən ticarət yollarının bu ərazidən keçməsi bölgənin əhəmiyyətini daha da artırdı. Ona görə də Səfəvi şahları Şirvan bəylərbəyliyini daha etibarlı və şah sarayına yaxın nümayəndələrin vasitəsi ilə idarə edirdilər. Təsadüfi deyildi ki, Şirvan ələ keçirildikdən sonra I İsmayıl tərbiyəçisi və yaxın tərəfdarı Hüseyn bəy lələ Şamlını bura canişin, Şah I Təhmasib qardaşı Əlqas Mirzəni, oğlu İsmayıl Mirzəni, bacısı oğlu Abdulla xan Ustaclını Şirvan bəylərbəyi təyin etmişdi(1, s.115-117).

Lakin Şirvanın daxili müstəqilliyinin ləğv edilməsindən narazı qalan yerli əyanlar və Şirvanşahların varisləri müstəqillik uğrunda mübarizəni davam etdirmişdilər. I Təhmasib Şirvan əyanlarının müstəqillik meylindən istifadə edən Şirvan bəylərbəyi Əlqas Mirzə ilə münasibətləri 1546-cı ildə dinc yolla həll etsə də, Əlqas Mirzə vədinə əməl etməmiş, məsciddə öz adına xütbə oxutdurmuş və zərb olunan sikkə üzərinə öz adını yazdırmışdı. Ona görə də I Şah Təhmasib 1547-ci ilin əvvəllərində Şirvana yürüş etmiş, tərəflər arasında Qəbələ yaxınlığında və Samur çayı sahilində baş vermiş döyüşdə Əlqas Mirzə məğlubiyyətə uğrayaraq Osmanlı dövlətinə sığınmışdı (2, s.199-200).

Əlqas Mirzənin və tərəfdarlarının müqaviməti qırıldıqdan sonra I Təhmasib oğlu İsmayıl Mirzəni Şirvana bəylərbəyi təyin etdi. Əlqas Mirzənin üsyanı yatırıldıqdan sonra 1547-ci ildə Bürhan Mirzə yenidən Şirvana yürüşə başladı. onun 1544-cü ildə Səfəvilər əleyhinə başlanmış üsyanı Əlqas Mirzənin ordusu tərəfindən məqlub edilmiş və Bürhan Mirzə Qaytağa qaçmışdı. Sağ qalmış tərəfdarları və Osmanlı qoşunlarının köməyi ilə yenidən Şamaxını və digər əraziləri ələ keçirdi. Osmanlı qoşunları Cənubi Azərbaycandan çəkiləlndən sonra I Təhmasib Abdulla Xan Ustaclını Şirvana hakim təyin etdi və əlavə qoşun hissələri verərək Şirvanı üsyançılardan təmizləmək haqqında göstəriş verdi. 1549-cu ildə Abdulla xanın başçılığı ilə qızılbaşlar üsyançıları məğlub etdilər.

1554-cü ildə Sultan Süleymanın Azərbaycana yeni yürüşü dövründə Osmanlı sarayına sığınmış Şirvanşah nəslindən olan Qasımın Şirvana yürüşü baş verdi. Kəffə yolu ilə Şirvan üzərinə gələn Qasımın qüvvələri Buğurd qalasını ələ keçirsələr də Gülüstan qalası yaxınlığında Abdulla xan Ustaclı tərəfindən məğlub edildilər. (3, s.161)

I Təhmasibin ölümündən sonra mərkəzi hakimiyyətdə baş vermiş daxili çəkişmələr zamanı Bürhan Mirzənin bacısı oğlu Qavus Mirzə Şirvanda üsyan qaldırmış, lakin bəylərbəyliyi Aras xan Rumlu tərəfindən məğlubiyyətə uğramışlar. 1578-ci ildə Osmanlı Sultanı III Murad Səfəvilərə qarşı müharibəyə başlayanda Əbubəkir Mirzə (Bürhanəlinin oğlu) Osmanlı sərkərdəsi Mustafa lələ paşa Şirvana yürüş edəndə onu müşayət etmişdi (4, s.327). O, Dağıstandan ləzgi və Şirvanlılardan ibarət topladığı üç min nəfərlik dəstəyə rəhbərlik edirdi.

Osmanlılar Şirvanı ələ keçirdikdən sonra burada Osmanlı hakimiyyətini möhkəmləndirmək üçün tədbirlər gördü. Şirvan Şamaxı və Dərbənd bəylərbəyliklərinə bölündü. Şamaxı vilayəti 16 Sancaqlığa (mahallara), Dərbənd vilayəti isə 8 Sançaqlığa (mahallara) bölündü. Osmanlıların Əbubəkir Mirzəni Şirvanda hakimiyyətə gətirmə vədi Səfəvilərdən narazı olan və Şirvanın müstəqilliyinə meyl edən qüvvələrdən istifadə etmək məqsədi daşıyırdı. Əbubəkir Mirzə diyarın istila edilməsində Sultana xeyli kömək etdiyi üçün Şirvanda hakimiyyəti ondan belə qəbul etməyə hazır idi. Lakin gözlənildiyi kimi, Əbubəkirin Şirvan hakimiyyətinə olan iddialarını müdafiə edən Şirvan feodallarının ümidləri özünü doğrultmadı (5, s. 151).

Beləliklə Osmanlılar Şirvanşahlar sülaləsini bərpa etmədilər. Əbubəkir Mirzəni yalnız bir sancağa hakim təyin etdi. Bundan narazı qalan Əbubəkir Mirzə sonradan Səfəvilərin tərəfinə keçərək Osmanlı ordusuna qarşı vuruşmuşdu.

Səfəvilər dövləti əleyhinə başlamış üsyan Şirvanın müstəqilliyini bərpa etmək məqsədini qarşıya qoymuşdu. Onlar Şirvanın müstəqilliyinə nail olmaq üçün Osmamnlı Türkiyəsinin köməyindən istifadə etmək üçün Osmanlı Sultanına müraciət etdirdilər. Osmanlılar isə bundan öz məqsədləri üçün istifadə edərək Xəzər sahilinə çıxmağa çalışırdılar. Şirvanda baş verən üsyanlar burada dövlət müstəqilliyi ənənəsinin güclü olduğunu göstərirdi (6, s.57)

Şirvan bəylərbəyliyi siyasi-coğrafi hüdudları və inzibati-ərazi vahid kimi əsasən tarixi Şirvanşahlar dövlətinin ərazisini əhatə edirdi. Bəylərbəyliyiinin cənub sərhədləri Kür çayı, Şimal sərhədi Samur çayı və Böyük Qafqaz sıra dağlarının ətəklərindən keçirdi. Şərqdə Xəzər dənizinə, qərbdə Kartli-Kaxetiyaya qədər uzanırdı. Şimal istiqamətində bəylərbəyliyin ərazisi Dərbənd torpaqlarını da əhatə edirdi (7, s.72)

Şirvan bəylərbəyliyi Səfəvi dövlətinin Şimal sərhəddində yerləşdiyinə görə Şamaxı şəhəri, cənub Qafqazda ipək istehsalı və ticarətin əsas mərkəzinə çevrilmişdi. Bu şəhərə xarici ölkələrdən çoxlu sayda tacirlər gəlirdilər. Şirvan ipəyi ingilis, rus, hind, türk tacirlərinin diqqətini cəlb edirdi.Şərq və Qərb dövlətlərinin Səfəvilər dövlətinə gələn ticarət karvanları Sərhəd bəylərbəyliklərinin ərazisindən keçdiyindən Şirvan bəylərbəyliyi Səfəvilərin iqtisadi həyatında mühüm rol oynayırdı.

Bəylərbəylərə Səfəvilər dövründə geyiş hüquqlar verilmişdi. Onlar maliyyə məsələləri ilə sərbəst məşğul olur, hərbi xərcləri vilayət ərazisindəki dövlət əmlakı hesabına ödəyir, mahallarda torpaq və vergi işləri ilə əlaqədar mübahisəli məsələləri həll edir, vilayətin xarici hücumlardan qorunması və sakitliyin gözlənilməsinə bilavasitə cavabdeh olur, dünyəvi və şəri idarələrə başçılıq və nəzarət edirdi. Həmçinin vilayətdə ürfi (cinayət) və şəri hüquqa aid məsələlərin həllində böyük rola malik idi. Bəylərbəyi hakim olduğu vilayətin ərazisindən keçən karvan yollarının qorunmasına da nəzarət edir və bu sahədə dövlət qarşısında çox ciddi məsuliyyət daşıyırdı (1,s.154-156)

Bəylərbəylər mərkəzi hakimiyyət tərəfindən təyin edilsə də daxili idarəetmədə müstəqil idilər, idarə etdikləri vilayət çərçivəsində geniş hüquq və səlahiyyətlərə malik idilər. Bəylərbəylik daxilində vergilərin toplanması, hərbi qüvvələrə rəhbərlik edilməsi, baş vermiş üsyanların yatırılması, xarici hücumların qarşısının alınması ilə yanaşı bəzi hallarda xarici ölkələrin nümayəndələri ilə diplomatik danışıqların aparılması, müqavilələrin bağlanılması kimi səlahiyyətlərə də malik idilər. 1561-1563-cü illərdə Volqa-Xəzər yolu ilə Səfəvilər dövlətinə gəlmiş ingilislərin “Moskva” ticarət şirkətinin təmsilçisi Antoni Cenkinson I Şah Təhmasiblə ticarət müqaviləsi bağlaya bilməsə də Şirvan bəylərbəyliyi Abdulla xan Ustaclı ilə razılaşma əldə edə bilmişdi. Abdulla xan

verdiyi fərmanla ingilis tacirlərinI Azərbaycanda aldıqları mallar üçün, eyni zamanda Avropadan gətirdikləri mallar üçün vergi və gömrük ödəməkdən azad etdi (6,s.129-130).

Bəylərbəylər idarə etdikləri ərazidən gələn gəlirlərdən ərazilərindən keçən xarici dövlətlərin səfirliklərinin xərclərinin ödənilməsinə borclu idilər. 1615-1616-cı ildə Səfəvi sarayına gedən Rusiya elçisi Q.Şahmatov yazır ki, Dərbənd sultanı bizə at, ərzaq verdi, həmçinin kəndlərdən ərzaq almağa icazə verərək şahın hüzuruna yola saldı. Biz Şamaxıya gəldikdən sonra Şamaxı voyevodası Usub bəy bizə şahın hüzuruna getmək üçün icazə, ərzaq və lazım olan digər şeyləri də verdi (8.,s.196-197)

Bəylərbəylər vilayət daxilində baş vermiş mübahisəli məsələlərlə bağlı hökm və fərmanlar da verə bilərdilər. 1612-ci ildə Şirvan bəylərbəyi Yusif xan tərəfindən verilən hökm Tahircal rəiyyətləri ilə Kələkürə və Məqa rəiyyətləri arasında yaranmış mübahisənin həll olunması ilə əlaqədar idi. Köş yaylağının Tahircal rəiyyətinə məxsus olunması əsas gətirilərək Kələkürə və Məqa rəiyyətlərinin Köş yaylağında köç salması qadağan edilmişdir (9,s.61-62)

Bəylərbəylikdə vəzir vəzifəsi var idi. Viləayət vəzirləri şah tərəfindən təyin olunub baş vəzirin nəzarəti altında işləyirdilər. Onlar vilayətlərdə mülki və maliyyə işlərinə nəzarət edirdilər. Bəzən bir vilayətin vəziri bir neçə vilayətin mülki və maliyyə işlərinə nəzarət edirdi.

Bəylərbəyliklərdə mühüm vəzifələrdən biri də sədr vəzifəsi idi. Sədrlər dini müəsisələrə məxsus olan butun vəqf əmlakından gələn gəlirlərə nəzarət edir və həmin əmlakdan gələn gəlirlərin xərclənmə təyinatını müəyyənləşdirirdilər. Sədr vilayətdən yığılan dini vergilərin toplanmasına nəzarət etmək, dini idarələrdə vəzifələrə təyinat və işdən çıxarmanı həyata keçirmək, vilayətlərdə şiəlik təriqətini təbliğ etmək səlahiyyətinə malik idi. (10,s. 65)

Qeyd olunan vəzifələrdən başqa bəylərbəylikdə kələntər, qazı, eşikağası, divanbəyi, mehmandar, saray vəzifələri olan süfrəçibaşı şərbətçibaşı, halvaçıbaşı, mirşikarbaşı, quşcubaşı, miraxur və s. mənsəblər də olmuşdur.

Bəylərbəyliklər inzibati baxımdan mahallara bölünürdü. Şirvan bəylərbəyliyinin tərkibinə Salyan, Quba və Kolxan, Ərəş və Şəki, Dərbənd, Alpaut, Bakı, Mahmudabad, Cəmşikəzək və Ağdaş mahalları daxil idi. Bakı bəylərbəyliyinin əsas ticarət mərkəz, Dərbənd ən mühüm strateji mövqedə yerləşən inzibati ərazi vahidi, Ərəş və Şəki mahalları da mühüm iqtisadi mərkəzlərdən biri idi.

Mahalları bəy, sultan, çox nadir hallarda xan titulu verilən hakimlər idarə edirdilər. Mahal hakimlərinin təyin edilməsi və çıxarılması şahın səlahiyyətində olsa da, onlar bütün məsələləri bəylərbəyi ilə məsləhətləşir, bəylərbəyi qarşısında məsuliyyət daşıyır və ona hesabat verirdilər. Mahallara hakim təyin edilərkən bu barədə şahın verdiyi fərmanda mahalın ərazisi, sərhədləri göstərilir və bəzən də mahalın qorunması inkişaf etdirilməsi, tikinti təmir işlərinin aparılması da öz əksini tapırdı. Vilayətlərdə olduğu kimi, bəzi mahallarda da hakimlik bəzən irsi xarakter daşıyırdı. (1,s.165)

Mahal hakiminə əsasən sultan titulu verilirdi. Onlar geniş hərbi və iqtisadi hüquqlara malik idilər. Naib hərbi sahədə sultanın müavini (naib) hesab edilirdi. Mahal mərkəzi ilə yanaşı qəsəbə və kəndlərdə də müəyyən sayda hərbi hissələr saxlanılırdı. Mahallarda vergi toplanması işinə hakimlər nəzarət edirdilər. İqtisadi məsələlərdə mahal hakimi müstəqil olsada bəylərbəyi onlara nəzarət edirdilər.

Şirvan bəylərəyliyində şəhərlər mahal mərkəzləri olmuşdur. Ona görədə şəhərlər mahal hakiminin idarəsi altında olmuşdur. Şəhərin mühüm vəzifəli şəxslərindən biri kələntər idi. Kələntər vəzifəyə şahın verdiyi fərmanla təyin olunurdu. Xəzinənin idarə olunması, vergilərin toplanması, lazımı məbləğin təyinatı üzrə ödənilməsi kələntərə həvalə olunurdu. (11,s.554)

Beləliklə, mahal hakimləri hərbi-inzibati və polis funksiyasını yerinə yetirirdilər. Mahal hakimi vergi və mükəlləfiyyətlərin vaxtında toplanmasını təşkil etməli, daxili asayişi qorumalı, müəyyən olunmuş sayda hərbi hissələr saxlamalı, müharibə şəraitində öhdəsinə düşən qoşunla bəylərbəyinin

xidmətində olmalı idi.

Qeyd olunanlardan aydın olur ki, Səfəvilər dövründə 200 ilə yaxın mövcud olmuş Şirvan bəylərbəyliyi hakim sülalə üzvləri tərəfindən idarə olunsa da, vilayətdə mülki və hərbi hakimiyyəti öz əllərində cəmləndirmişdir. Şah sarayında olan vəzifələrin əksəriyyəti müvafiq şəkildə bəylərbəylərin sarayında da olmuşdur. Vilayətdə mütləq hakimiyyətə malik olsa da şaha tabe olmuş, topladığı verginin müəyyən olunmuş hissəsini dövlətin xəzinəsinə vermiş, zərurət yarananda öhdəsində olan qoşun hissəsi ilə şahin xidmətində olmuşdur. Bəylərbəylik inzibati cəhətdən mahallara bölünmüşdur. Mahal hakimləri şah tərəfindən təyin olunsa da, onların fəaliyyətinə bəylərbəyi nəzarət etmişdir. mühüm iqtisadi və strateji mövqeyinə görə Şirvan bəylərbəyliyi Səfəvilər dövlətində ən böyük inzibati-ərazi vahidlərindən biri hesab olunurdu.

**Ədəbiyyat:**

1. Bayramlı Z.H. Azərbaycan Səfəvi dövlətinin quruluşu və idarə sistemi. Bakı: ADPU, 2006, 258 s.
2. Azərbaycan tarixi. VII clddə, III cild, Bakı:Elm, 1999, 534 s.
3. İskəndər bəy Münşi. Dünyanı bəzəyən Abbasın tarixi. I c. Fars dilindən çevirən Ş.Fərzəliyev. Bakı: Şərq, 2010, 1144 s.
4. Aşurbəyli S.B. Şirvanşahlar dövləti. Bakı: Avrasiya press, 2006, 416 s.
5. Əfəndiyev O. Azərbaycan Səfəvilər dövləti.Bakı:"Şərq-Qərb", 2007, 344 s.
6. Süleymanov N.M. Azərbaycan Səfəvilər dövləti (1501-1736-cı illər). Dərs vəsaiti. Bakı: "İqtisad Universiteti" Nəşriyyatı. 2018, 214 s.
7. Piriyev V.Z. Azərbaycanın tarixi-siyasi coğrafiyası. Bakı: Müəllim, 2006, 148 s.
8. Путешественники об Азербайджане. Под редакцией Э.Шахмалиева. т. I, Составил З.И.Ямпольский. Баку: Издательство Академии Наук Азербайджанской ССР, 1961, 425 с.
9. Musəvi T.M. Orta əsr Azərbaycan tarixinə dair fars dilində yazılmış sənədlər. Bakı: Azərbaycan SSR EA., 1965, 131 s.
10. Musəvi T.M. Orta əsr Azərbaycan tarixinə daiq fars dilli sənədlər (XVI-XVII əsrlər). Bakı: Elm, 1977, 238 s.
11. Адам Олеарий. Подробнее описание путешествия Гольштинского посольство в Московию и Персию в 1633, 1636 и 1639 годах. Перевод с немец. П.Барсова, Москва: 1870, 1033 с.

**Ширванское бейлербекство как важная административно - территориальная единица (1538-1736)**

*В.А.Гаджиев*

**Ключевые слова:** Ширван, Шамаха, Бейлербекство, район, хозяйственный, управление

**Аннотация:** В статье утверждается, что Ширванское бейлербекство, в борьбе за восстановление традиций независимой государственности в период Сефевидов, Ширванское бейлербекство, являющееся крупнейшей административно-территориальной единицей, с военно-стратегической точки зрения обладает правами губернаторства в провинции.

**Shirvan Beylerbeylik as an important administrative-territorial unit (1538-1736)**

*V.A.Hacıyev*

**Key words:** Shirvan, Shamakhi, Beylerbeylik, district, economic, management

**Annotation**: The article deals with the foundation of Shirvan Beylerbeylik, and its struggle to restore the traditions of independent statehood in the Safavid period. Shirvan Beylerbeylik is the largest administrative-territorial unit from a military-strategic point of view, has the authority of the governorship of the province.